Ağdam xatirələri

SADIQ MURTUZAYEV

(əvvəli ötən saylarımızda)

Bu zavod da Şəkidən sonra respublikada yaradılan ikinci zavod idi. 5 min qara-mal kökəldən təsərrüfatlararası birliyi də yemlə təmin edirdi. Hər iki birliyin təcrübəsinə həsr edilmiş respublika və Zaqafkaziya respublikalarının seminar müşavirəsi keçirildi. Bu seminarların təşkilatçısı Sov.İKP Mərkəzi Komitəsinin Zaqafkaziya bölməsinin müdiri N.M.Tişşenko idi. O, "Kuban" qurğusu bazasında istehsal olunan hündürlüyü az qala 1 metrə çatan və barmaq yoğunluğunda olan yonca dəstəsini əlinə götürüb"bu nə möcüzədir, mən bunu aparıb Moskvada Mərkəzi Komitədə nümayiş etdirəcəm."

Yeni yaradılan təsərrüfatı işçi qüvvəsi ilə təmin etmək problemi ortaya çıxmışdı. Biz bunu üçün Daxili İşlər Nazirliyinə müraciət edib burada bir əmək koloniyası yaradılmasına icazə aldıq və onun yaşayış məskəni olaraq Ergi qəsəbəsinin əsasını qoyduq. Əvvəlcə Ergidə qışlaq sahəsi olan 30-dan çox kolxoz və sovxozun hər birinə bir yaşayış evinin tikməsini tapşırdıq. 32 birmərtəbəli yaşayış evinin tikintisi bir aya başa çatdırıldı. Lakin böyük bir problem ortaya çıxmışdı. Qəsəbəyə yol yox idi və Saleh Hacıyev bu problemi də boynuna götürdü və şəhərdən oraya 70 km uzunluğunda asfalt yol çəkildi.

Qəsəbə tədricən böyüdü, əmək koloniyası ləğv olundu və çox məhsuldar torpağı olan Ergi qəsəbəsi böyüdü və indi orada 4 mindən çox əhali yaşayır.

Bir neçə il əvvəl

Ergiyə böyük dostum çoban Əlinin görüşünə getmişdim. Qəsəbədən bir dəstə mərzilili ağsaqqal gəlib mənə minnətdarlıq etdilər ki, "Ay Sadıq müəllim, nə yaxşı ki, siz bu qəsəbəni tikdirmisiniz, yoxsa biz də qaçqın həyatı yaşayardıq. Yaxşı olar ki, bizim qəsəbəyə gəlib qonağımız olasınız, qəsəbənin sakinlərinin ürək sözlərini eşidəsiniz". Mən onlara söz verdim ki, indi gələ bilmərəm, növbəti gəlişimdə mütləq xahişinizi yerinə yetirərəm. Çox təəssüfedirəm ki, bundan sonra Ergiyə getməyim qismət olmadı. Bunu də əlavə etdi ki, sizin qoyub getdiyiniz istehsal müəssisələrindən bir şey qalmasa da bol suyumuz və çox məhsuldar torpaqlarımız var. Qəsəbədə elə bir ailə yoxdur ki, qapısında maşını olmasın.

Mən qürur duydum ki, özümdən sonra təşəbbüsümlə yaradılmış nə isə qalıb və insanları sevindirmişəm. Məni yaşadan və sevindirən həm də odur ki, ağdamlılar öz fədakarlığına görə hər yerdə hörmət, nüfuz sahibidirlər. Həm də sevinirəm ki, indi ağdamlılarla görüşmədiyim gün demək olar ki, yoxdur. Onlardan ayrılmağımdan 30 ildən çox keçməsinə baxmayaraq məni unutmayıblar. Yuxarıda dediyim verilişdə Baş Qarvənd kəndində tikilmiş, üzərində pambıq qozalarının rəmzi kimi verilmiş bir restoran göstərildi. Burada 4 kəhrizin suyunun birləşməsilə ətrafında çox orijinal bir istirahət mərkəzi yaradılmışdı. Burada qızıl xallı balıqları müştərilər özləri tutub həmin restorana sifariş verə bilirdilər.

Ağdam daş karxanası

ərazisində Koroğlu təpəsi adlanan dağın zirvəsində fəaliyyət göstərən istirahət mərkəzinin yaradılmasının da maraqlı tarixçəsi vardır. Bir gün karxananın rəhbəri Qasım Kərimovun yanına gəlib dedim ki, mən sabah gəlib Koroğlu təpəsinə qalxacağam. Q.Kərimov dedi ki, oraya qalxmaq qeyri-mümkündür. Mən 10 ildən çoxdur ki, onun ətəyindəyəm, lakin heç yaxın düşməmişəm. Dedim ki, mən nəinki yaxın düşəcəm, təpəyədək qalxacam. O, məni qorxutmaq üçün dedi ki, bu dağ başdan-başa qaratikan kolları ilə örtülüdür və hər addımda gürzə ilan təsadüf olunur (o, ilanın adı çəkiləndə belə qorxurmuş). Mən sözümün üstündə möhkəm dayandım. Həm də əlavə etdim ki, mən ilandan qorxmuram, birdə ki, ayağımda kirz çəkmələr olacaq ki, bu da ilandan mühafizə üçün kifayətdir. Çıxılmaz vəziyyətdə qalan Kərimov yalvarmağa başladı ki, bu niyyətinizi bir həftə sonraya saxlayın. Düşündüm ki, onun nə isə bir tədbir görmək məqsədi vardır. Razılaşdım. Q.Kərimov həmin axşam Mingəçevirə yola düşür. Rəhbəriağdamlı olanyol tikintisi trestinin (gərək ki, adı Mürşid idi) müdirindən 6 ədəd S-100 markalıbuldozer alıb həmin gecə geri qayıdıb bir həftənin tamamında mənə zəng vurub deyir ki, indi gələ bilərsiniz, təpəyə asfalt yol hazırdır. Bir həftədə təpəyə 4,5 km asfalt yol çəkilmişdi.Təpənin ziirvəsinə, ağdamlıların Koroğlu qəsri adlandırdığı balaca bir qalannın yaxınlığında bir ərazini göstərib yuxarıda geniş bəhs etdiyim Gürcüstanın Qardabani rayonundan gətirdiyim villaların layihəsini ona verdim və yuxarıda bəhs etdiyim əhvalat baş verdi. Daha sonra buraya dağın arxasından axan çaydan su çəkdirib möhtəşəm bir istirahət mərkəzi yaradıldı.

Ağdamda belə potensialı olan insanların potensialından belə məqsədli istifadəyə dair çoxsaylı misallar gətirmək olar.

Abdal-Gülablı istirahət mərkəzindən

daha bir maraqlı misal gətirmək olar. Bir gün Kənd təsərrüfatı naziri, Sosialist Əməyi Qəhrəmanı Məmməd Əskərovu həmin istirahət mərkəzinə aparmışdım.O, buradakı təmtərağı görüb soruşdu ki, bəs buna vəsaiti necə tapmısan? Mən ona kolxozların illik gəlirinin 2%-ni mədəni-sosial tədbirlərə ayırıb illər boyu iistifadə eləmədiklərini, bölünməz fond adlanan maliyyə fondunda yığılıb qaldığını danışanda o, sevinərək dedi ki, bəs bu vəsaitin ayrılması nazirliyində borcu olub xərclənmədiyindən respublika həmkarlar təşkilatının nazirliyə çox ciddi iradlarına səbəb olur, mən vəsait ayırım burada çoxmərtəbli müasir sanatoriya binası tikdir. Mən məmuniyyətlə razılaşdım. O, təcili bunun üçün layihə göndərdi və vəsaitin də ayrıldığını xəbər verdi. Təcili işə başladıq. Elə bu zaman Q.Kərimovu (daş karxanasının rəhbəri) çağırıb göstəriş verdim ki, onun xüsusi sərəncamında olan 1№-li karxanadan (buranın daşı digər 5 karxanadan xeyli fərqli keyfiyyətə malik idi) oraya daş daşınmasının, həm də onun bu karxanadan özünə münasib adamlara və obyektlərə daş daşımasının, həm də bütün respublikada daş üçün buraya gəlib bəzən günlərlə növbə gözləyən müştərilərə istədiyi obyektə bir maşın daş aparmağı məcbur etdiyini bildiyimdən (hərçəndi onun bu qanunsuz əməlinə göz yumulurdu) bu hesaba həmin karxanadan daş daşınması barədə göstəriş verdim.

Mənə xəbər verdilər ki,

həmin daşın bir hissəsi keyfiyyətcə aşağı olan digər 5 karxanadan daşınıb. Mən gedib yerində yoxlayarkən məlumatın dəqiq olduğunu gördüm, onu buraya dəvət edib səbəbini soruşanda dedi ki, bu Əfqan Qasımovun fitvasıdır (suvarma sistemləri tikintisi trestinin müdiri). Mən Əfqanın da, prokurorun da bir müstəntiqlə buraya gəlməsi barədə göstəriş verərkən vahiməyə düşüb yalvardı ki, icazə verin səhvimi düzəldim. Mən də dedim ki, indi buradakı standarta uyğun olmayan daşı karxananın hesabına geri apar və keyfiyyətli daşla əvəz et. O, buna bir həftə ərzində əməl etdi.

Yeni tikintidə işlər sürətlə gedirdi və bunu aparan kolxozlararası tikinti idarəsinin müdiri İsmayılovanın xüsusi fədakarlığı var idi. Lakin mənfur qonşularımızın başladığı təxribat onu sona çatdırmağa imkan vermədi. Onlar bu mərkəzi ələ keçirib ilkin olaraq oradakı gözəl villalara od vurub yandırdılar.

Ağdam çay evi. Bu bina öz orijinallığı ilə sanki Ağdamın rəmzinə çevrilmişdir. Onun da inşa edilməsinə dair maraqlı bir epizod vardır.

Bir gün Ağdam məscidinin axundu yanıma gələrək dedi ki, "ay yoldaş katib, bu məscid Qarabağda fəaliyyət göstərən yeganə məsciddir. Yəqin fikir vermisiniz ki, Qarabağın bütün rayonlarındanbu məscidə Cümə namazına gəlirlər, lakin dəstəmaz almağa, su, bir stəkan çay içməyə yaxınlıqda bir obyekt yoxdur. Mən dərhal göstəriş verdim ki, məscidin yaxınlığındakı parka su çəkib bir bulaq tiksinlər. Elə bu günlərdə mərhum akademik Xudu Məmmədov əlində "Yaponiya" adlı jurnal gətirdi. Jurnalın üzündə bir yaraşıqlı bina gördüm və ona dedim ki, "Xudu müəllim, bu binadan məscidin qarşısındakı parkdatikdirəcəyəm". O da dərhal cavab verdi ki, icazə ver onun tikintisinə mən prorablıq edim. Onun zövqünə və istedadına bələd olduğumdan sevindim və elə həmin an şəhərin memarı Fidousini və tikinti təşkilatının rəhbərini, ictimai iaşə idarəsinin müdirini çağırıb işə başlamağı göstəriş verdim.

Bir neçə gün sonra

tikinti başladı və Xudu müəllim dediyi kimi səhər saat 6-da yaşadığı Mərzili kəndindən gəlib tikintiyə nəzarət etməyə başladı. Çox qısa müddətdə bir mərtəbəsi yerin altında olmaqla 4 mərtəbəli bu bina hazır oldu. O qədər gözəl bina alındı ki, (bunda Xudu müəllimin rəhbərliyi danılmaz idi) bir çox rayonlardan tamaşaya gəlirdilər. Hətta hazırda Quzanlı qəsəbəsində onun təkrarı tikilsə də həmin orijinallıq alınmamışdır. Mənfur qonşularımız çörək muzeyindən sonra ikinci qrad bombasını bu binaya atmışdılar.

Kəlbəcər yaylaqlarında mədəni mərkəz. Ağdamlı böyük alim, xalqımızın fəxri Xudu Məmmədov bir qayda olaraq yay istirahətini Ağdamda, doğma kəndi Mərzilidə keçirirdi. Onun növbəti gəlişindən üç gün sonra yaxın dostu, tibb elmləri doktoru, professor Nurəddin Rzayev Ağdama gələrək mənimlə görüşüb dedi ki, Xuduya baş çəkməyə gəlmişəm. Çox narahatam. Ağır infarktdan sonra bütün etirazlarıma baxmayaraq yenə rayona getdi. Mən onu aparıb Mərziliyə getdik. O, ata yurdunda balaca bir ev tikdirmişdi və həm də buxarısı olan bir zirzəmisi var idi. Onu bu buxarının qarşısında oturub bir neçə qədim, bəzisicındır xalılar üzərində nə isə axtarırdı və sonralar onun "Naxışlar" kitabında axtardıqlarının təsviri verilmişdir. Özünəməxsus yumorla dedi ki, "ay Sadıq müəllim, görürsünüzmü, bunların əlindən qaçıb bu zirzəmidə gizlənmişəm, burada da məndən əl çəkmirlər".

Nurəddin Rzayev hal-əhval dan sonra üzünü mənə tutub dedi ki, mən 3 gün Xudunun qonağı olacağam. Sizi işdən qoyduğuma görə üzr istəyirəm, çox sağ olun. Mən də üzrxahlıq edib dedim ki, sizinlə ola bilməyəcəyimə görə mən də üzr istəyirəm. Sabah Kəlbəcərin Dəlidağ yaylağında olmalıyam, yəqin ki, eşitmisiniz, hər il eyni gündə orada bir möcüzə baş verir.

Dağın zirvəsində

bir nöqtədən su fontan vurur (gözəl şairimiz Famil Mehdinin ona həsr etmiş şeiri də var), cəmi 3 gün davam edir və qəflətən də sönür. Sabah həmin möcüzə baş verəcək, qoyun sürüləri bu yaylaqda olan dostum çoban Əlidən xahiş etmişəm həmin möcüzənin gününü bir gün əvvəl mənə xəbər versin, gəlib tamaşa edəcəyəm. Odur ki, mən sözümə əməl edib sabah tezdən Dəlidağa özümü çatdırmalıyam. Elə bunu demişdim ki, Xudu müəllim başladı mənə yalvarmağa ki, onu da aparım. Dostu Nurəddin Rzayev özündən çıxaraq "sən nə danışırsan, biz səni heç bura gəlişinə razı deyildik". Xudu əl çəkmədi, Nurəddin mənə mane olma, bu arzum yerinə yetirilməsə mən ölərəm. Çarəsiz qalan professor dedi ki, onda mən də sizinlə gedirəm.

Mən çıxılmaz vəziyyətə düşmüşdüm. Bir tərəfdən sevinir, digər tərəfdən qorxurdum ki, Xudu müəllimin başına bir iş gələ bilər. Lakin etiraz etməyə də gücüm çatmadı. Bildirdim ki, mən səhər saat 6-dan gec olmayaraq yola düşməliyəm. Fikirləşdim ki, bəlkə bu yolla onu yayındırım. Lakin Xudu geri çəkilməyərək dedi ki, səhər saat 5-dən gec olmayaraq harada istəsəniz orada olarıq. Ertəsi gün səhər saat 5-də evdən çıxarkən hər ikisini qonaq evinin həyətində gördüm. Mən tez yol paltarımı geyinib onların yanına getdim. Sürücüm də artıq orada idi. Mən görüşüb dedim ki, bir şərtimi bildirim, səhər yeməyini Kəlbəcərin məşhur Tunnel dərəsində, nahara Ceyran bulağına, axşam yeməyinə Dəlidağa çatıb çoban Əlinin qonağı olacağıq. Xudu müəllim buna da çox sevindi. Tunnel dərəsinə saat 8-də çatdıq, çayın kənarında süfrə açdıq.

Bİzə bu da məlum idi ki, onların böyük dostu Bəxtiyar Vahabzadə Kəlbəcərin İsti su sanatoriyasında dincəlir. Ona baş çəkərkən bizimlə gedəcəyini bildirdi. Onlara el arasında"böyük üçlük" deyirdilər.

İsti suyun qənşərində Taxta adlanan böyük düzənlikdə Mərzili Qoca adı ilə tanınan Qoca Gözəlov Xudu müəllimin yerlisi və yaxın qohumu idi. Xudu ona baş çəkməyi xahiş etdi və biz də onunla məmuniyyətlə razılaşdıq. Qoca Gözəlov Kəlbəcər yaylaqlarında saxlanılan 100 minlərlə qoyunun demək olar ki, hamısının yununu tədarük edirdi. Lakin Gözəlov düşərgədə olmadı. Biz bir stəkan çay içib Ceyran bulağına yola düşdük. Ceyran bulağı Qoca Gözəlov tərəfindən abadlaşdırılmış və bir mərmər üzərində Səməd Vurğunun Aşıq Şəmşirə ünvanladığı şeirindən bir bənd yazılmışdır:

Aşıq Şəmşir, Dəli dağdan keçəndə,
Ceyran bulağından qızlar içəndə,
Kəklikli daşlardan xəbər al məni,
Saz tutub, söz deyib yada sal məni.

Burada qısa istirahətdən sonra yola düşdük və axşama yaxın çoban Əlinin düşərgəsinə çatdıq. Əli kişi bizim üçün xüsusi çadır hazırlamış və içərisini xalılarla döşəmişdi. Alaçıqda odun peçi və qarşısında xeyli odun görüb təəccübləndik. O, bizə izah etdi ki, avqust ayının ortaları olmasına baxmayaraq, gecə soyuq olar, donarsınız. Az sonra axşam yeməyi yeyib saat 10 olmamış yatağımıza girdik. Çoban Əli səhərədək peçin qarşısında oturub odun əlavə edirdi.

Səhər çölə çıxdıqda hamımız donub qaldıq. Çöldə sanki qar yağmışdı. Hər yer qırova bürünmüşdü. Bir də gördük ki, Əli dayı (hamımız ona belə müraciət edirdik) təəccüblə soruşdu ki, bəs Xudu müəllim hanı? Xudu necə sürüşüb çıxmışdısa onun xəbəri olmayıb. Biz hər yerə baxıb onu görmədiyimizdən qorxuya düşdük, elə bildik ki, o, Dəlidağın arxasında Mərzili camaatının olduğu Qaranlıq dərə adlanan yaylağa enib. Lakin xoşbəxtlikdən gördük ki, o, Dəlidağın zirvəsində əlini yelləyir. Bir km-ə qədər olan bu sərt dağ yamacını necə çıxa bildiyi bizi təəccübləndirdi. Tez Qaz -69 maşınına minib onun yanına qalxdıq. Xudu müəllim fantan vuracağı bulağın qarşısında idi.

Bir-iki saat gözlədik,

günəş üfüqdə görünərkən dayandığımız dağ elə bil tərpəndi. Əvvəl elə bildik ki, zəlzələ baş verib, lakin bir azdan bulaq fantan vurdu, suyu bəlkə də 50 metrə qədər sıçradı. Bir az keçməmiş su durulmağa başladı və billur kimi təmiz suya çevrildi. Biz axşamadək oradan ayrılmadıq, hətta Əli dayı əvvəl səhər, sonra nahar yeməyini bura gətirməli oldu.

Axşamdan xeyli keçmədən buradan ayrıla bilmədik və qaranlıq düşəndə alaçığa endik. Biz 3 gün bu möcüzəyə tamaşa etdik. Su qəflətən fantan vurduğu kimi, qəflətən də kəsildi. Bir gün əvvəl qərara gəlmişdik ki, ətrafda olan çobanları və ailəsi ilə istirahət edənləri dəvət edib onlarla görüş keçirək. Çünki hər üç şəxsiyyət ilə görüş onlar üçün ərməğan idi. Ancaq Əli dayı hətta Dəlidağdan xeyli arası olanlara da xəbər vermişdi. Yalan olmasın 300-ə qədər adam toplaşmışdı. Yenicə yığıncağa başlayıb ilkin sözü Xudu müəllimə vermişdim ki, başqa bir möcüzə baş verdi. Bir qara bulud gəlib başımızın üstündə dayandı (görüş Əlinin yatağından xeyli aralıda kiçik bir dağ çayının kənarındakı yamaclıqda idi) və üstümüzə elə yağış tökdü ki, sanki vedrə ilə su tökürdülər. Bizi ətrafdakı çadırlara dəvət etsələr də yerimizdən tərpənmədik və Nurəddin Rzayevin təklifi ilə camaatdan üzr istəyib maşınımıza əyləşərək yola düşdük. Peşmançılıqdan heç birimiz danışmırdıq.

Qəflətən məndən bir səda qopdu, "tapdım, tapdım", soruşdular ki, Sadıq müəllim nəyi tapdın? Mən izahat verdim ki, uzun illər öncə, Abşeronda işlədiyim zaman Moskvanın qərarı ilə Bolqarıstan Xalq Respublikasının Razqrad mahalı ilə dostluq əlaqələri yaranmışdı. 2 ildə növbə ilə bizim nümayəndə heyəti Razqrad, onların nümayəndə heyəti isə Abşeronun qonağı olurdu.

İlk dəfə mənim rəhbərlik etdiyim

nümayəndə heyəti Mahal Partiya Komitəsinin birinci katibi Bonço Mitevin müşayiətilə mahalın ərazisindəki Dəli Orman adlanan meşədəki Bolqarıstana rəhbərlik edən Osman Paşanın tikdirdiyi Dairəvi binanın ortasında 100-ə qədər adamın yerləşə bildiyi bir meydan, ətrafında isə qapısı həmin meydana açılan 10 otaq var idi. Bonço Mitev izahat verdi ki, burada Osman Paşa xaricdən gələn qonaqları qəbul edirmiş.

Mən yoldaşlarıma dedim ki, bu dərədə mədəni mərkəz olaraq belə bir bina tukdirəcəm. Xudu müəllim də dərhal mənim bu fikrimi alqışlayıb əlavə etdi ki, həm də icazə verin həmin binanın tikintisində iş icraçısı (prorab) olum. Nurəddin Rzayev yenə kəskin etirazını bildirdi ki, bu 3 gündə bizdə ürək qoymamısan, indi də belə bir eşqə düşürsən. Lakin Xudu müəllim dediyinin üstündə təkidlə dayandı.

Biz Kəlbəcər ziyalıları ilə də bir görüş keçirdik. Rayon partiya komitəsinin birinci katibi İnqilab Nadirov bizim 50-60 nəfər təklifimizə qarşı 200 nəfərdən çox fəal toplamışdı.

Çox yadda qalan bir görüş keçirildi

Sonra da katibin verdiyi ziyafətdə iştirak edib yola düşdük. Gecə saat 12-də onları Xudu müəllimin Mərzilidəki evində düşürüb Ağdama qayıtdım.

Mən adətən səhər 5-dən gec olmayaraq qalxıb həyətə çıxırdım. Elə bu zaman (evim Qonaq evinin həyətində idi) gördüm ki, Xudu müəllim Nurəddin Rzayev ilə birlikdə əlində bir fiqurla Qonaq evinin həyətində dayanıblar. Mən elə ev paltarında onların yanına gəldim. Professor giley-güzara başladı ki, "bu bizi deyəsən pis vəziyyətdə qoyacaq, səhərədək yatmayıb siz təsvir etdiyiniz binanın maketini düzəldib. Mən ona çox yalvarsam da fikrindən döndərə bilmədim."

Ertəsi günü onu 10 nəfərlə və şəhərin memarı Firdousi ilə Dəlidağa göndərməli oldum. Belə planlaşdırdım ki, Dəlidağda yaylağı olan 20-dən çox təsərrüfatın tikinti briqadaları növbə ilə bu işdə iştirak etsinlər.

Dəlidağda quraşdırılmış hava telefonu 190 km-lik məsafədə elə işləyirdi ki, sanki yanımızda kimsə danışır. Halbuki, həmin telefon Ağdamda 15-20 km məsafədə çətin eşidilirdi.

Xudu müəllim yeganə oğlu Toğrulu da özü ilə götürmüşdü və hər gün mənə material sifariş verir, mən də dərhal əməl edirdim. 14 gündən sonra binanın hazır olduğunu deyib məni açılışa dəvət etdi. Mən vertolyot sifariş verib Ağdam hava limanına gələndə daxili işlər nazirinin birinci müavini Tofiq Aslanovun təyyarədən düşdüyünü görüb onu da dəvət edib özümlə apardım. Açılışa 500 nəfərədək adam toplaşmışdı. Mən yığıncağı açıb sözü Xudu müəllimə verdim. Sonra da məşhur qeneralımız, Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun oğlu general Tofiq Aslanovu təqdim etdim və bu, böyük alqışlarla qarşılandı. Binanın açılışından sonra elə həmin günü buraya dəvət olunmuş ağdamlılar gözəl bir konsert verdilər.

Ən çox ehtiyat etdiyimiz Xudu müəllimin xəstəliyindən əsər-əlamət qalmamışdı.

Ağdamda görüşmək arzusu ilə...

Əzizim! Nəzərə al ki, bunlar yazmaq istədiklərimin qaralamasıdır. Ağır xəstə olduğumdan qəzet variantını yaza bilmədim. Lazım bilsəniz yəqin ki, səriştəli bir müxbir qaydaya salar. S.M.

Redaksiyadan: Hörmətli Sadıq müəllim! Siz bu qələbə günündə bizi təkrar Ağdama apardınız. Hamımızın gözü aydın olsun. Allah Ali Baş Komandanımızı, ordumuzu qorusun!